| STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ YANINDA DÖVLƏT AKKREDİTASİYA XİDMƏTİ | **Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidməti** |
|---|---|

# KEYFİYYƏT ÜZRƏ SİYASƏT

**Beynəlxalq tələblərinə cavab verən akkreditasiya sistemi vasitəsilə Azərbaycanın iqtisadi inkişafına və dünya bazarına çıxışına töhfə vermək**

1. DAX-ın akkreditasiya fəaliyyətini AZS İSO/İEC 17011-2013 beynəlxalq standartının tələbləri əsasında həyata keçirmək;
2. DAX-ın fəaliyyətini şəffaflıq əsasında həyata keçirmək və bütün sifarişçiləri üçün akkreditasiya qaydalarının əlçatanlığını təmin etmək;
3. Mülkiyyət formasından və ya müraciət edilən akkreditasiya sahəsindən asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən və müəyyən olunmuş tələbləri yerinə yetirən bütün UQO-lar üçün akkreditasiya qaydalarının eyniliyini təmin etmək;
4. DAX-ın akkreditasiyasının nəticələrinin bəyan edilmiş akkreditasiya sahəsi üzrə beynəlxalq səviyyədə tanınması və təkrar qiymətləndirmənin qarşısının alınması üçün səylər göstərmək, İAF və İLAC-la qarşılıqlı tanınma haqqında sazişlərə qoşulmaq və beynəlxalq səviyyədə tanınmasına nail olmaq;
5. DAX-ın fəaliyyətinin təkmilləşdirilməsi və idarəetmə sistemini işlək vəziyyətdə saxlanması üçün akkreditasiya üzrə beynəlxalq və regional təşkilatların işində aktiv iştirak etmək, təlimlər, seminarlar və təcrübə mübadiləsi vasitəsilə DAX-ın mütəxəssislərinin peşə səviyyəsinin artırılmasını təmin etmək;
6. İnformasiya mübadiləsinin və qabaqcıl təcrübənin öyrənilməsi məqsədi ilə xarici ölkələrin akkreditasiya üzrə qurumları ilə qarşılıqlı əlaqələri inkişaf etdirmək;
7. Qərəzsizliyin və tərəfsizliyin təmin edilməsi məqsədi ilə akkreditasiya prosesində iştirak edən bütün maraqlı tərəflərin təmsilçiliyini təmin etmək;
8. Akkreditasiya prosesinə cəlb edilmiş UQO-lara aid məlumatların məxfiliyinin qorunmasını təmin etmək;
9. DAX-ın fəaliyyətinin səmərəliliyinin artırılması üçün elmi-texniki tərəqqinin nailiyyətlərindən fəal istifadə etmək və bunun üçün müvafiq resurslar ayırmaq;
10. DAX-ın keyfiyyət siyasətinin bütün maraqlı tərəflər üçün əlçatanlığını təmin etmək.